## **Dövlət İdarəetmə İnstitutu** (Bolqarıstan)

Bolq. Институтът по публична администрация (ИПА)
İng. The Institute of Public Administration (İPA)
Vebsayt: www.ipa.government.bg
İcraçı direktor: Mr. Pavel Ivanov

Bolqarıstan Dövlət İdarəetmə İnstitutu (Dİİ) Nazirlər Şurasının tabeliyində milli dövlət institutudur və Bolqarıstanın dövlət idarəedilməsində inzibati potensialının gücləndirilməsi və səmərəliliyin yüksəldilməsinə cavabdehdir. Tədqiqatların aparılması, təlimlərin həyata keçirilməsi və təcrübələrinin nəticələrinin bölüşülməsi ilə İnstitut dövlət qulluqçularının karyera inkişaflarına töhvə verərək onların peşəkarlıq qabiliyyətlərinin yüksəldilməsini hədəfləyir.

İnstitut 2000-ci ildə Bolqarıstanın Avropa Birliyinə daxil olması baxımından inzibati islahatların bir hissəsi olaraq yaradılmışdır. O zamankı adı Dövlət İdarəetmə və Avropa İnteqrasiyası İnstitutu (The Institute of Public Administration and European Integration (IPAEI)) idi. İnstitut 2007-ci ildən hazırkı adı ilə adlanmağa başladı.

İnstitut Bolqarıstan Respublikası Nazirlər Şurasının tabeliyində İcraçı Agentlik statusuna malikdir. Onun yaradılması və fəaliyyət göstərməsi Dövlət Qulluqçuları Qanunu və Nazirlər Şurasının 82 saylı Qərarı kimi hüquqi aktlarla tənzimlənir.

İnstitutun **missiyası** peşəkar dövlət qulluğunun inkişaf etdirilməsi və modern dövlət siyasətinin çağırışlarına cavab verən dövlət qurumlarının potensialının gücləndirilməsi məqsədi ilə təlim və tədqiqatların həyata keçirilməsidir.

İnstitut müasir texnologiyalar, metodlar və təlim proqramlarından istifadə etməklə dövlət idarəedilməsi təlimləri sahəsində lider olması və müştəriləri tərəfindən İnstitutun təqdim etdiyi xidmətlərin keyfiyyətini yüksək qiymətləndirməsi **vizyon**una sahibdir.

Dİİ-nun 2016-2020-ci illəri əhatə edən Strateji Hədəfləri aşağıdakılardır:

- Təhsilin çevik və effektiv formalarının tətbiq edilməsi ilə yeni işə başlayan dövlət qulluqçuları üçün ilkin peşə təlimlərinin həyata keçirilməsinin modernləşdirilməsi,
- Təlimlərin keyfiyyəti ilə müştəri məmnuniyyətinin yüksəldilməsi,
- Yaxşı idarəetmə və inzibatçılığın modernizasiyasının dəstəklənməsində İnstitutun işinin ayrılmaz tərkibi olaraq tədqiqat və təhlillərin gücləndirilməsi,
- İnzibatçılığın inkişafı üçün yaxşı təcrübələrin və konsultasiyaların yayılmasının genişləndirilməsi,

- Dövlət idarəedilməsinin modenizasiyası üçün regional təşəbbüslərin tətbiqində iştirak etmək,
- Dövlət administrasiyalarının əməkdaşları üçün həyata keçirilən təlim xidmətlərinin standartları nöqteyi-nəzərindən özünü aparıcı mərkəz olaraq təşkil etmək.

İnstitut Bolqarıstanda dövlət idarəetməsinin bütün səviyyələrində (mərkəzi, regional və lokal) dövlət qulluqçuları üçün mərkəzləşdirilmiş şəkildə təlimlərin həyata keçirilməsi missiyasını yerinə yetirir. Hal-hazırda qurumun 28 əməkdaşı var. Onların çoxu təlim menecerləri və müxtəlif sahələr üzrə dövlət qulluqçuları üçün təlim proqramlarının layihələşdirməsi, planlaşdırılması, təşkil edilməsi, tətbiq edilməsi və qiymətləndirilməsi üzrə fəaliyyət göstərirlər. İnstitut müxtəlif mövzular üzrə 100-dən artıq dövlət və özəl sektoru əhatə edən ekspertlər və mütəxəssislər daxil olmaqla təlim təminatçıları ilə razılaşmalara malikdir.

Öz missiyasını həyata keçirməklə bağlı Dövlət İdarəetmə İnstitutu 3 əsas istiqamət üzrə fəaliyyət göstərir:

- Təlimlər
- Tədqiqatlar
- Konsultasiyalar

**<u>Təlimlər</u>**

İnstitut əsas 2 istiqamət üzrə təlimlər təşkil edir – (1) Karyera İnkişafı üçün İcbari Təlimlər və (2) Peşəkar İnkişaf üçün İxtisaslaşdırılmış Təlimlər.

*Karyera İnkişafı üçün İcbari Təlimlərə* aşağıdakılar daxildir:

- ✓ “Dövlət qulluğuna giriş kursu” (dövlət idarəetməsinə yeni qəbul olan əməkdaşlar üçün)
- ✓ “Yeni menecer: idarəetmədə çətinliklər” (menecer vəzifələrinə ilk dəfə təyin olunmuş əməkdaşlar üçün)
- ✓ “Yaxşı İdrəetmə Liderliyi” (yuxarı səviyyədə vəzifə tutan dövlət qulluqçuları üçün)

*Peşəkar İnkişaf üçün Təlimlər* dövlət rəsmilərinin maraq dairəsində olan müxtəlif mövzular və sahələr üzrə xüsusi proqramları və kursları əhatə edir. Bu istiqamət üzrə İnstitutun portfelində 100-ə yaxın təlim kursundan ibarət 8 əsas tədris proqramı mövcuddur:

- Yaxşı idarəetmə/dövlət idarəetməsi
- Dövlət siyasəti və hüquqi tənzimləmələr
- Büdcə qərarlarının təsirliliyi
- Avropa Birliyi proqramı/Bolqarıstan Avropa Birliyində
- Yerli özünüidarəetmə (yerli administrasiyalar üçün 10 kursdan ibarət təlim proqramı)

- E-hökumət
- Ümumi bacarqlar/komputer bilikləri
- Ümumi bacarıqlar/xarici dil təlimi

İnzibati heyətin xüsusi təlim ehtiyacları üçün İnstitut xüsusi hazırlıq təlimləri təşkil edir. Müxtəlif təlim proqramları və kursları ilə yanaşı, İnstitut dövlət idarəçiliyinin aktual məsələləri üzrə konfranslar, illik peşəkar görüşlər və illik müsabiqələr təşkil edir.

Bolqarıstanın dövlət qulluqçularının Dİİ-nin təlimlərinə böyük maraqları var. Məsələn, İnstitut tərəfindən 2014-cü ildə 21 000-dən artıq dövlət qulluqçusunun cəlb olunduğu 1000-dən artıq təlimlər həyata keçirilmişdir.

**Dövlət İdarəetmə İnstitutunun Bolqarıstanda və beynəlxalq institutlarla əməkdaşlığı**

Dövlət İdarəetmə İnstitutu Bolqarıstan Nazirlər Şurası və Avropa Struktur Fondları tərəfindən tərəfindən maliyyələşdirilən “Dövlət idarəetməsində yaxşı idarəçilik” Fəaliyyət Proqramının Milli Bürosu ilə yaxın əməkdaşlıq edir.

Avropa İttifaqı ilə Avropa Sosial Fondu tərəfindən maliyyələşdirilən “İnzibati Potensial” Fəaliyyət Proqramının maliyyə dəstəyi ilə İnstitutun beynəlxalq səviyyədə əməkdaşlıq etdiyi partnyor mərkəzlərlə birlikdə həyata keçirdiyi layihələrdən biri olan “Daha effektli və səmərəli fəaliyyət üçün administrasiya daxilində əməkdaşların peşəkar bacarıqlarının təkmilləşdirilməsi” layihəsi çərçivəsində 2012-2013-cü illərdə Maliyyə Nazirliyinin 1734 əməkdaşına, 2014-2015-ci illərdə isə 981 əməkdaşına fərdi və qrup təlimləri keçirilmişdir.

İnstitut Dövlət İdarəetməsi üzrə Avropa İnstitutları şəbəkəsinin bir hissəsidir və bir sıra Avropa təlim mərkəzləri ilə uğurlu əməkdaşlıq qurmuşdur.

Aşağıdakı qurumlarla əməkdaşlıq və təcrübələrin bölüşülməsi üzrə razılaşmalar imzalanmışdır:

- Dövlət İdarəetməsi üzrə Avropa İnstitutu - Maastrixt, Niderlandiya (European Institute of Public Administration (EIPA)
- Fransa Milli İdarəetmə Məktəbi (École nationale d'administration, France - National School of Public Administration of France (ENA))
- İrlandiya Dövlət İdarəetməsi İnstitutu (Institute of Public Administration of Ireland)
- Balkanlararası Dövlət İdarəetmə İnstitutu - Thessaloniki, Yunanıstan (The Interbalkan Institute of Public Administration )

Dİİ bu institutlarla əməkdaşlıq edərək Bolqarıstanın və Avropanın ixtisaslaşmış qurumları və institutları arasında daha yaxşı icraetmə və idarəetmə üçün dövlət qulluqçularına

keçirilmiş təlimlər üzrə təcrübələrin bölüşülməsi, həmçinin müəyyən tədqiqatların inkişaf etdirilməsi məqsədi ilə müxtəlif tədbirlər təşkil edir.

İnstitut il ərzində beynəlxalq layihə və proqramlar inkişaf etdirir, tətbiq edir və onlarda iştirak edir.